AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA



*Gün gələcək*
*Azərbaycan dünyaya günəş kimi doğacaq.*

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

24 APREL 2022-ci il BAZAR | № 85 (7267) | GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET | WWW.RESPUBLIKA-NEWS.AZ



# Zəfər xalqımıza çox yaraşır

## V Qurultayın Dünya Azərbaycanlılarını birləşdirən məkanda - Şuşada keçirilməsi qalib ölkəmizin yaratdığı reallıqların təntənəsidir

***"Biz bu gün azad Qarabağda, azad Şuşada Dünya Azərbaycanlılarının Qurultayını keçiririk. Bu qurultayın adı Zəfər qurultayıdır və bu, təbiidir. Çünki tarixi Zəfərdən sonra ilk dəfədir ki, dünya azərbaycanlıları toplaşır, qurultay keçirir və ümumiyyətlə, Zəfər adı xalqımıza çox yaraşır. Siz buraya Zəfər yolu ilə gəlmisiniz, qurultayın adı Zəfər qurultayıdır. Hazırda ölkəmizin müxtəlif yerlərində, ilk növbədə, azad edilmiş ərazilərdə Zəfər muzeyləri inşa edilir". Bu fikirləri Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının V Qurultayında deyib.***

Ölkə başçısı Azərbaycanın Vətən müharibəsində göstərdiyi qəhrəmanlığa, şücaətə, postmünaqişə dövrünün reallıqlarına, diasporumuzun ötən illər ərzində təşkilatlanması, vahid məqsəd uğrunda mübarizə aparması istiqamətində atılan addımlara, həqiqətlərimizin dünya ictimaiyyətinə çatdırılmasına verdiyi töhfələrə bir baxış keçirdi, həm də qarşıdakı dövrün prioritetlərini açıqladı. Qeyd etdi ki, qarşıya qoyulan əsas hədəf tarixi Zəfərin reallıqlarını dünya ictimaiyyətinə çatdırmaqdır. Bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi, dövlətimiz qalib dövlət kimi əbədi yaşayacaq. Hamımız üçün, Azərbaycanda, xaricdə yaşayan azərbaycanlılar üçün bu, böyük xoşbəxtlikdir.

**(davamı 2-ci səhifədə)**

# Zəfər xalqımıza çox yaraşır

**V Qurultayın Dünya Azərbaycanlılarını birləşdirən məkanda - Şuşada keçirilməsi qalib ölkəmizin yaratdığı reallıqların təntənəsidir**

(əvvəli 1-ci səhifədə)

Şuşa şəhərində Dünya Azərbaycanlılarının V Qurultayı möhtərəm Prezidentin tapşırığı və iştirakı ilə keçirilib. Bu qurultay son illər yüksək təşkilatlanma və birlik nümayiş etdirən, beynəlxalq ictimaiyyətin Azərbaycan həqiqətləri ilə bağlı məlumatlandırılmasında xüsusi rol oynayan diasporumuzun Qarabağın azad olunmasından sonra ilk böyük görüşüdür. 65 ölkədən 400 nəfərdən çox nümayəndənin iştirak etdiyi Zəfər Qurultayında bundan sonra diasporun fəaliyyətini müəyyənləşdirəcək mühüm qərarların qəbul edilməsi Azərbaycan diasporunun fəaliyyətinin daha da güclənməsinə, koordinasiya işlərinin daha yüksək səviyyədə qurulmasına da ciddi töhfə verəcək. Multikultural dəyərləri və zəngin ənənələri ilə fərqlənən Azərbaycan xalqı uzun illərdir ki, belə bir tarixi hadisəni gözləyirdi. Qurultayın tarixi əhəmiyyətindən biri də onun Azərbaycanın və Türk dünyasının Mədəniyyət Paytaxtı olan Şuşada keçirilməsidir.

Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında, eyni zamanda informasiya müharibəsində, ermənilərin Azərbaycana qarşı işğalçılıq və hərbi cinayətlərinin, soyqırımı siyasətinin ifşasında diaspor təşkilatlarının müstəsna rolu olub. Diaspor təşkilatlarının bu rolu cənab Prezident İlham Əliyev tərəfindən də yüksək dəyərləndirilib. Artıq erməni siyasətçilər də Azərbaycanın Ermənistanla mübarizəsində diaspor cəbhəsini açdığını və ermənilərin onilliklər və yüzillik boyunca apardığı təbliğatı ifşa edərək, iflasa uğratmasını təşvişlə etiraf etməkdədir. Möhtərəm Prezident İlham Əliyev də çıxışlarında informasiya mübarizəsində düşmən üzərində əldə etdiyimiz qələbədə dünya azərbaycanlılarının və diaspor təşkilatlarının əhəmiyyətli rolunu qeyd edib. Ermənistan üzərində əldə edilən möhtəşəm qələbədən sonra Azərbaycan Cənubi Qafqazda yeni geosiyasi reallıq yaradıb və bu reallıq artıq beynəlxalq aləm tərəfindən də qəbul edilir. Dünya Azərbaycanlılarının Şuşada keçirilən Zəfər Qurultayında diaspor təşkilatlarımız qarşısında ciddi tapşırıqlar qoyuldu. Bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Şuşada keçirilən Dünya Azərbaycanlılarının V Qurultayında jurnalistlərə açıqlaması zamanı bildirib. Qeyd edib ki, bu vəzifə və tapşırıqların ən vacib istiqamətlərindən biri məhz ölkəmizə qarşı aparılan bəzi təxribat və çirkin təbliğatların qarşısının alınması, Azərbaycan həqiqətlərinin daha aktiv şəkildə diaspor təmsilçiləri vasitəsilə onların çalışdıqları, yaşadıqları ölkələrdə geniş ictimai zümrələrə təqdim edilməsi və azərbaycanlıların yaşadıqları ölkələrin ictimai-siyasi həyatında daha da aktiv rol oynamalarının vacibliyidir. Azərbaycanın haqq səsinin beynəlxalq ictimaiyyətə çatdırılmasında fəallıq göstərən insanlar onillərdən bəri xalqımızın ədalətli mübarizəsinin ən parlaq nəticəsi - Azərbaycanın mərd oğullarının dastan yazdığı doğma Şuşa şəhərində bir araya gəldilər.



Prezident İlham Əliyev qurultayın açılışında çıxışı zamanı qeyd etdiyi kimi, Azərbaycan postmüharibə dövrünə tam hazırdır və öz sülh gündəliyini təqdim edir. Ermənistanla Azərbaycan arasında əlaqələr, o cümlədən diplomatik əlaqələr yaradıla bilər. Bu təklifi irəli sürməklə biz bir daha xoş niyyətimizi göstəririk, uzaqgörənlik göstəririk. Ermənistanda hərdənbir baş qaldıran revanşist qüvvələr bilməlidirlər ki, bu, Ermənistan üçün yeganə çıxış yoludur və bəlkə də son şansdır. Əgər bundan imtina etsələr, onda biz də Ermənistanın ərazi bütövlüyünü tanımayacağıq, bunu rəsmən bəyan edəcəyik. İkinci Qarabağ müharibəsinin nəticələrini nəzərə alaraq Ermənistan tərəfi yaxşı başa düşməlidir ki, bu addım nəyə gətirib çıxaracaq.

Şuşa keçirilən qurultayda əsas mövzular arasında postmüharibə dövründə diaspor fəaliyyətinin təşkili məsələsi də yer alırdı. Buraya bir tərəfdən tarixi Vətənlə əlaqələrin gücləndirilməsi, yeni nəslə vətənpərvərlik hisslərinin aşılanması və Azərbaycan dilinin həftəsonu məktəbləri çərçivəsində tədrisinin təşkili, eləcə də şəbəkələşmə və müxtəlif səpkidə kampaniyaların hazırlanması kimi icmadaxili fəaliyyətlər daxildir. Digər tərəfdən isə yerli ictimaiyyət və beynəlxalq təşkilatlar, xüsusilə də siyasi və akademik dairələrlə yeni dövrün tələblərinə uyğun münasibətlərin qurulması ətrafında müzakirələr diqqət mərkəzində oldu.

Qurultay yeni reallıqlar şəraitində Azərbaycan diasporunun fəaliyyəti üçün yol xəritəsi oldu. Diaspor təşkilatları indiyədək bir çox mühüm uğurlara imza atıblar. 44 günlük Vətən müharibəsi zamanı informasiya mübarizəsində daha da fəallıq göstərdilər, bu, pandemiya şəraitində də davam etdirildi. Təbii ki, buradan döndükdən sonra onlar fəaliyyətlərini yeni dövrün tələblərinə uyğun formada quracaqlar. "Şuşaya gələn hər bir insan görür ki, Şuşa Azərbaycan şəhəridir", - deyən ölkə başçısı bildirib: "Siz, indi buraya gələn qonaqlar müharibədən ilyarım keçəndən sonra gəlirsiniz. Əgər müharibədən dərhal sonra gəlsəydiniz, görərdiniz ki, nə vəziyyətdədir. Hələ də dağılmış vəziyyətdədir. Ancaq Şuşa bərpa olunur, Şuşa dirçəlir və Şuşanın dirçəlməsi ilə bağlı gedən işlər çox genişmiqyaslıdır". İşğaldan azad edilmiş bütün ərazilərdə aparılan quruculuq işləri, xüsusilə də Zəfər yolu, Füzuli Beynəlxalq Hava Limanı, yenidən qurulan infrastruktur, Şuşa şəhərində sürətlə həyata keçirilən bərpa işləri bir daha sübut edir ki, bu yerlər Azərbaycan xalqının əzəli torpağıdır. İndi bu ərazilərdə gündəlik həyat şəraitini təmin etmək, insanları öz ata-baba yurdlarına geri qaytarmaq üçün aparılan quruculuq işlərinin mümkün qədər tez başa çatdırılması istiqamətində ciddi səylər göstərilir.

Bu gün xalqımız artıq işğaldan azad olunmuş ərazilərin quruculuq-bərpa işlərini həyata keçirir, Qarabağ və Şərqi Zəngəzuru cənnətməkana çevirmək üçün əzmlə çalışır. Qurultayda vurğulandı ki, Dünya Azərbaycanlılarının V Qurultayının məhz Şuşa şəhərində təşkil olunması da əbəs yerə deyil. Çünki bu, hər bir azərbaycanlının, xüsusilə də xaricdə yaşayan, Vətən həsrəti çəkən soydaşlarımızın ən böyük arzusu idi. Həmin diaspor fəalları, bu sahədə çalışan liderlər uzun illər sonra Şuşa şəhərinə toplaşıblar. İndiyə qədər diasporun fəaliyyət strategiyası torpaqlarımızın işğaldan azad olunmasına nail olmaq idisə, bundan sonra bu ideya tamamilə yeni hədəflərə yönləndirilir. Prezident İlham Əliyev qurultay zamanı həmin strategiya və yeni hədəfləri müəyyənləşdirdi.

Azərbaycan qarşısına qoyduğu ən böyük hədəflərdən birinə çatıb, torpaqlarımızı işğaldan azad edib. Ancaq unutmamalıyıq ki, Azərbaycanın daha da qüdrətli, müstəqilliyinin daimi və əbədi olması üçün bir yumruq kimi Prezidentimizin ətrafında sıx birləşməli, əvvəlkindən qat-qat artıq birlik və səfərbərlik nümayiş etdirməliyik.

**Mustafa KAMAL,**
**"Respublika".**

**Respublika.- 2022- ci il.- 24 aprel.- S. 2.**